

# Vətən yolunda ölmək şərəfi

***Ehtiram Həsən oğlu Hüseynli İkinci Qarabağ müharibəsində ürəkdən bağlandığı Vətəninin torpağına, daşına qurban deyib canından keçdi. Məhz buna görə də ölümü həyat qədər dəyərli oldu. Qanı bahasına sevdalandığı Vətəni yaşatmaqla ömrünün 43-cü ilində adı Azərbaycanın yeni, şanlı tarixinə yazıldı. Beləcə, xalqın, qeyrətli oğlu torpağa gömülmədi, milyonların könlünə köç etməklə əbədiyyət dünyasına qovuşdu.***

1977-ci il aprel ayının 17-də Lənkəran şəhərində anadan olan Ehtiram Hüseynli saf, müqəddəs arzuların qanadında gələcəyə yol alır. Xalqına, Vətəninə layiqli vətəndaş, bu dünyanın ən yaxı insanı olmaq üçün Lənkəran şəhər 6 saylı tam orta məktəbində oxuyub öyrənməkdən doymur. Nəticədə 1994-cü ildə orta təhsilini başa vuranda sağlam düşüncəsi, savadı, yüksək insanı keyfiyyətləri ilə el-obada tanınır, sevilir.

Ehtiram həyatının ən qaynar çağlarına Tusi adına Azərbaycan Dövlət Pedaqoji Universitetdə başlayır. Ali məktəbin İlkin hərbi və fiziki təlim fakültəsinin tələbəsi olur. Mədəniyyəti, etikası, millətinin xoş gələcəyi naminə öyrənmək həvəsi, sevdiyi peşəsinə məhəbbəti tələbə Ehtirama uğur gətirir. 1998-ci ildə universiteti leytenant rütbəsi ilə başa vurub doğma təhsil ocağı olan Lənkəran şəhər 6 saylı tam orta məktəbində hərbi müəllimi kimi pedaqoji fəaliyyətinə başlayır.

Gənc müəllim ilk gündən şagirdlərin qarşısına ürəklə çıxır. Təmiz, ədalətli, namuslu fəaliyyəti işıqlı gələcəyə doğru yollar açır. Lənkəranlıların gözündə öz sənətini ürəkdən sevən, Vətənə, torpağa bağlı, xalq üçün yaşamağı bacaran ziyalı kimi ucalan Ehtiram müəllim 2 ildən sonra könüllü olaraq hərbi xidmətə yollanır. Naxçıvan Muxtar Respublikasının Böyük Soyuq adlanan ərazisində adına can dediyi, canından artıq sevdiyi doğma Azərbaycanın keşiyində dayanır. 2 illik ordu həyatında ona ləyaqətlə xidmət edir. Ən əsas əməlləri, əsgərlərə qarşı xoş rəftarı nümunə olur. 2002-ci ildə leytenant rütbəsindən baş leytenant rütbəsinə qalxır. Hərbi xidməti bitirib yenidən iş yerinə qayıdır. Müəllimlik peşəsini davam edir. 23 il Lənkəran şəhər 6 saylı tam orta məktəbdə Gənclərin Çağırışaqədərki Hazırlığı fənnindən dərs deyir. Gənc nəslin təlim-tərbiyəsi, sağlam, vətənpərvər böyüməsi Ehtiram müəllimin həyat amalın çevrilir.

Bütün bunlarla bərbər Ehtiram müəllim həmişə Vətən torpaqların erməni faşistlərinin tərəfindən işğalına qarşı barışmaz mövqe tutur və döyüş əmrinin verilməsini gözləyir. İkinci Qarabağ müharibəsi başlanan kimi əyninə cəngavər libasını geyinib tabor komandiri vəzifəsində döyüş meydanına girir. Dəfələrlə dığaların atəş nöqtələrini susdurur, yağının çoxlu canlı qüvvəsini məhv edir. Hər qələbəyə ürəkdən sevinir, düşmənə qarşı nifrəti daha da alovlanır. Füzuli, Cəbrayıl rayonları istiqamətində gedən şiddətli döyüşlərdə göstərdiyi şücaətlə ad-san çıxardır. Baş leytenant 21 oktyabrda Qubadlı uğrunda gedən haqq savaşımızın da qəhrəmanı olur. Vətənin qeyrətini canından üstün tutan igid komandir son damla qanına qədər vuruşub burada şəhadətə qovuşur.

Şərəfli ölümü Vətəninə, millətinə başucalığı gətirən Ehtiram Hüseynli "Vətən uğrunda", Cəbrayılın və Zəngilanın azadlığına görə medalları ilə təltif olunub.

***Zəfər Orucoğlu, AJB üzvü***